# İnnovativ İKT-nin inkişafı prioritetdir

## Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması İKT sənayesinin qabaqcıl modellərinin tətbiqinə səbəb olacaq



Məlum olduğu kimi Prezident İlham Əliyevin Sərəncamı ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin bazasında Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) yaradılıb. Azərbaycanda dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə yaradılan yeni dövlət qurumu ölkədə informasiya texnologiyaları, rabitə, milli informasiya təhlükəsizliyi, innovativ texnologiyaların tətbiqi, ən müasir kommunikasiya sistemlərinin yaradılaraq həyata keçirilməsi, İKT sənayesinin qabaqcıl modellərinin hazırlanması və digər mühüm iqtisadi layihələrin reallaşmasına nəzarət və icra edən əsas mərkəzi struktur olacaq. Bu qurum ölkənin gələcək innovativ inkişaf proqramına mühüm töhfə vermək məqsədilə ən genişmiqyaslı layihələrin həyata keçirilməsində innovativ idarəetmə aparatı kimi də xarakterizə oluna bilər.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ən modern və texnokrat idarəçiliyə malik, milli innovasiyaların yaradılmasını mərkəzləşdirən çevik idarəetmə orqanı olacaq. Ölkəmizin qarşıdakı əsas inkişaf hədəflərindən biri informasiya təhlükəsizliyi sisteminin inkişaf etdirilməsini vacib sayır və informasiya təhlükəsizliyinin təmin olunması və etibarlı müdafiə sisteminin qurulmasından ibarətdir. İnformasiya təhlükəsizliyinin təmini məsələlərində cəmiyyətin bütün qüvvələrinin dövlət, biznes və vətəndaş cəmiyyətinin, xüsusən cəmiyyətin intellektual potensialının səfərbər edilməsi vacibdir. İnformasiya təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsi dövlətin, cəmiyyətin və insanların fəaliyyətinin vacib şərtlərindən biridir. Qlobal informasiya cəmiyyətinin formalaşması nəticəsində dövlətlərarası ziddiyyətlər və münaqişələr virtual məkana da keçir. İnformasiya-kommunikasiya texnologiyalarının geniş yayılması və istifadəsi nəticəsində virtual məkanda formalaşan şəbəkəni, həmçinin istifadəçiləri informasiya resursları və sistemlərini mümkün təhdidlərdən qorumaq məqsədilə informasiya təhlükəsizliyi olduqca vacibdir. Bu fundamental məsələlər də Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdindəki Elektron Təhlükəsizlik Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən olacaq.

Azərbaycanda İKT-nin inkişafı və müasir texnologiyaların tətbiqi başlıca istiqamətlərdən biridir. Dövlətin bu sahəyə diqqəti və investisiya dəstəyi sayəsində İKT-də əldə olunan uğurlar ölkəmizin Avropa və dünya dövlətləri ilə açıq rəqabətə girmək potensialından xəbər verir. Prezident İlham Əliyevin birbaşa İKT sektoruna diqqət və qayğısının nəticəsidir ki, ölkəmiz İKT-nin inkişaf göstəriciləri üzrə ümumdünya səviyyəsinə yaxınlaşır. Dövlət başçısının müəyyən etdiyi strategiyaya uyğun olaraq, ölkəmizdə həyata keçirilən geniştutumlu tədbirlər, siyasi iradə sayəsində Azərbaycan dünyada İKT ölkəsi kimi tanınır.

Ümumdünya İqtisadi Forumunun dünya ölkələrinin İKT-nin inkişafına dair son hesabatında respublikamızın mövqeyi daha da yaxşılaşıb və Azərbaycan 56-cı yerdə qərarlaşıb. . Təşkilat son illərdə ölkəmizdə İKT sektorunda yüksək dinamikanın əldə olunduğunu, internet istifadəçilərinin sayının və genişzolaqlı internetdən istifadənin yüksəldiyinə diqqət çəkərək respublikamızın MDB regionunda əsas ölkələrdən hesab edir. Qurum ölkəmizdə digər rabitə xidmətlərinin də inkişaf etdiyini, informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə dünya reytinqində mövqeyinin ilbəil yaxşılaşdığını da bildirir.

Bu strateji xəttin əsas trendlərindən biri isə kommunikasiyaların ən son innovativ meyarlarını tətbiq etmək, bu texnologiyaların gəlirtutumlu sahəyə çevrilməsi yolu ilə iqtisadiyyatda modernizasiyanı gücləndirməkdir. İnformasiya-kommunikasiya texnologiyalarının əsas sütunlarından biri olan kosmik sənaye infrastrukturunun yaradılması da məhz bu hədəflərdən sayıla bilər. Kosmik sənaye çoxşaxəli olub, kosmik maşınqayırmanın inkişafı, kosmik komplekslərin layihəsimasının təkmilləşdirilməsi, kosmik tədqiqatların nəticələrinin analizi, təsərrüfat əhəmiyyətli məsələlərin həlli, aparaturaların qurulma prinsiplərinin işlənilməsi, informasiyanın toplanılması və emalının müasir texnologiyalarının yaradılması, həmçinin yeni növ materialların hazırlanması kimi geniş bölmələri əhatə edir. Bu nəhəng infrastrukturların yaradılması güclü iqtisadi inkişaf və milli elmi kadr institutlarının olmasını vacib edir.

Yeni qurum yüksək texnologiyalar parklarının yaradılması üçün də koordinasiyanı həyata keçirən əsas struktur hesab edilir. Məlum olduğu kimi ölkəmizin əsas sənayeləşmə trendlərindən biri bu tipli parkların yaradılmasından ibarətdir. Yüksək texnologiyalar parkını yaratmaqda məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır. Artıq bu layihənin icrası məqsədilə ərazi seçilib və Sumqayıt şəhərində "YT Park"ının yaradılması işlərinə başlanılıb. Park üçün zəruri infrastrukturun formalaşdırılması, maddi-texniki bazasının və idarəetmə qurumlarının yaradılması yaxın vaxtlarda başa çatacaq. Bu ərazidə informasiya və kommunikasiya texnologiyaları, telekommunikasiya və kosmos, enerji səmərəliliyi sahələrində tədqiqatlar aparılacaq, yeni və yüksək texnologiyalar hazırlanacaq. "YT Parkı"nda elmi-texniki və innovasiya sahələrində elmi tədqiqat və təcrübə işləri həyata keçiriləcək.

Hazırda ölkədə genişzolaqlı internetin inkişafı, bütün yaşayış məntəqələrində sürətli internet xidmətlərinə çıxış imkanlarının yaradılması istiqamətində tədbirlər görülməkdədir. İKT sahəsində sürətli inkişafın təmin edilməsi məqsədilə İKT məhsullarının istehsalı və ixrac potensialının artırılması, innovasiyaların tətbiqi, yerli və xarici investisiyaların cəlb olunması, genişzolaqlı internet xidmətlərinin inkişaf etdirilməsi prioritet hədəflərdir. Görülən bu tədbirlərin nəticəsində beynəlxalq telekommunikasiya və İKT üzrə qurumların növbəti hesabatlarında Azərbaycanın mövqeyi daha da yaxşılaşacaq. Qeyd olunduğuna görə, İKT resurslarının genişlənməsi və internetin sürətinin artması elektron xidmətlərin çeşidinin və bu sistemə qoşulan strukturların sayının artmasına, elektron hökumət layihələrinin genişlənməsinə səbəb olacaq.

Respublikamızda elektron xidmətlər şəbəkəsinin geniş miqyas alması baxımından qeyd olunan qurumun xüsusi əhəmiyyətini də qeyd etmək olar. Ümumiyyətlə, yeni innovativ layihələrin çevikliyini təmin etmək, investisiya mühitini yaxşılaşdırmaq, investorların maraqlarını təmin etmək, birgə layihələrdə iştirak üçün imkan yaratmaq məqsədilə e-xidmətlərin tətbiqi mühüm yer tutur. Bütün bu prioritetlər yeni dövlət strukturunun fəaliyyətində başlıca yer tutacaq.

***"Səs" Analitik Qrupu***

İki sahil.- 2014- cü il.- 14 mart.- S. 9.